DOI:10.30546/gdu.2023.189-192

**UOT (UDK): 3.37**

# İNKLÜZİYADAN SOSİALLAŞMAYA DOĞRU

***dosent Bayramova Ziyafət Vilayət qızı, Ələsgər Aysel Musa qızı***
***Gəncə Dövlət Universiteti***
***ziyafet@bk.ru***
***aysel.alasgar90@gmail.com***

**Xülasə:** *Cəmiyyətin mədəni, əxlaqi, iqtisadi inkişafından asılı olmayaraq, xüsusi qayğıya ehtiyacı olan insanların ictimai şüurla bağlı problemləri həmişə var. Ona görə də uşaqların kiçik yaşlarından təhsil müəssisələrində inklüziv biliklər verilməsinə ehtiyac duyulur. Bizim reallıqda xüsusi qayğıya ehtiyacı olan insanların hüquqları qanunlarımızda təsbit olunmuşdur, dövlət və qeyri-dövlət strukturları tərəfindən daim dəstək var. İnklüziv problemi olan uşaqlar məktəbəqədər yaşdan normal təhsil mühitinə daxil edilməlidirlər.*

*Belə uşaqların sosiallaşması üçün təkcə inklüziyanın prinsiplərinə deyil, həm də ümumbəşəri dəyərlərin gözlənilməsi mütləqdir. Gələcəkdə bu uşaqlar vətəndaş olaraq azad, suveren ölkəmizdə tam hüquqları qorunmuş insan kimi yaşamalıdırlar, cəmiyyət üçün gərəkli olduqlarını hiss etməlidirlər.*

**Açar sözlər:** inklüziv təhsil, məktəbəqədər təhsil, hüquqi baza, sosial müdafiə, sosiallaşma

**Ключевые слова:** инклюзивное образование, дошкольное образование, правовая база, социальная защита, социализация

**Key words:** inclusive education, preschool education, legal framework, social protection, socialization

Ictimai-tarixi, iqtisadi və mədəni səviyyələrdən asılı olmayaraq hər bir cəmiyyətdə xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial müdafiəsi istənilən qədər təmin edilmir.

İnklüziv təhsilin dünya birliyi tərəfindən hüquqi-normativ bazalarda təsbit edilməsi reallığı vardır. Bu elə bir alətdir ki, hər bir əlil insanın təhsil almaq imkanlarının reallaşdırılmasına şərait yaradır. Problemlərin həlli üçün böyük əhəmiyyətə malik hüquqi baza movcuddur:

1. 1948-ci ildə qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi;
2. 1990-cı ildə Contyendə qəbul edilmiş Təhsil haqqında Ümumdünya Bəyannaməsi;
3. Dakar fəaliyyəti çərçivəsində 2000-ci ildə qəbul edilmiş Təhsilin Ümumdünya Forumunun nəticələri;
4. BMT İnsan Hüquqları Konvensiyası (2006- cı il);
5. Azərbaycan Respublikası Konstitusiyası (1995-ci il);
6. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu (2009-cu il)

İnklüziya hər bir uşağın intellektual, fiziki, sosial, milli, dini mənsubiyyətindən asılı olmayaraq, fəal təhsil prosesinə qoşulması deməkdir. İnklüzivin təhsilin forması olaraq fərqi ondan ibarətdir ki, xüsusi qayğıya ehtiyacı olan uşağın fərdi xüsusiyyətləri nəzərə alınmaqla təhsil ehtiyacları ödənilir. Lakin bu prosesin gedişatı elə tənzimlənməlidir ki, burada digər (səhhətində problem olmayan) təhsil alan uşaqlarla xüsusi qayğıya ehtiyacı olan vətəndaşlar arasında ciddi fərqlər qabarıq formada özünü göstərməsin [2].

İnklüziv təhsilin əsasını təşkil edən başlıca ideya uşaqların subyekt olaraq müxtəlif təhsil tələbatlarının təmin edilməsidir. Göstərilən format üçün bir sıra pedaqoji yanaşma mexanizmlərinin işlənilməsi nəzərdə tutulur ki, burada inklüziya şəraitində təhsil ehtiyaclarının ödənilməsi ilə yanaşı təlim və tərbiyənin effektivliyinin təmin edilməsidir. İnklüziyada xarici ölkələrin mövcud təcrübəsi aşağıdakıları özündə əks etdirir: inklüziv təhsilin tətbiqi nəticəsində təlim və tərbiyə prosesində dəyişikliklər nəticəyönümlü prosesi

DOI:10.30546/gdu.2023.189-192

təmin edərsə, burada yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqlar deyil, onlarla yanaşı digər uşaqlar da nailiyyətlər əldə etməklərinə müvəffəq olarlar.

İnklüziyanın məktəbəqədər təcrübəsindən psixo-sosial şərtlərinin gözlənilməsi məktəbəqədər yaşlı uşaqlar üçün iki önəmli faktorlardan asılıdır:

1. Uşağın idrakı, fiziki, sosial və emosional inkişafını sosial mühit tərəfindəndən təmin edilməsi faktoru;

2. Normal inkişafda olan uşaqların xüsusi qayğıya ehtiyacı olan uşaqlarla ünsiyyət qurması və produktiv kommunikasiyasına hazırlıq səviyyəsi.

Önəmli məqamlardan olanı normal inkişafda olan uşağın xüsusi qayğıya ehtiyacı olan uşaqlarla ünsiyyətindən hər iki tərəfin biri-birinə müsbət təsiri, normal və hərtərəfli inkişafın təmin edilməsi nəticəsində özünü göstərməsidir. Beləliklə, inklüziv təhsil prosesində bir qrupun digər qrup üzərində dominantlığı imkansızdır.

İnsanların yaşıdlarının dəstəyinə, sıx sosial əlaqələrinə, pozitiv münasibətlərn qurulma təcrübəsinə ehtiyacları böyükdür. İnklüziya məktəbəqədər təhsil müəssisəsinin fəaliyyət aspektlərində hər bir uşağın prosesə daxil olmasını təmin edir, uşaqların erkən yaşlarından təhsildən kənar qalmasının qarşısını alır. İnklüziya uşaqlarda fərqli cəhətləri deyil, onları birləşdirən cəhətləri üzə çıxararaq, cəmiyyətin yaralı üzvlərinə çevirir.

Inklüziv təcrübənin məktəbəqədər təhsil müəssisəsində reallaşdırılması şərtləri mövcud vəziyyət təhlil olunduqda dəyərləndirilməlidir. Inklüziv yanaşmalar çərçivəsində fəaliyyətini həyata keçirən pedaqoji kadrların peşəkar hazırlığı mühüm məqamlardan biridir. Pozitiv hisslərin tərbiyə olunması, emosional stabillik uşaqların tərbiyə və təhsil prosesini daha da mükəmməl edir.

Məktəbəqədər təhsil müəssisəsində vacib şərtlərdən hesab etdiyimiz sosial biliklərin və bacarıqların inkişafı, kommunikativ vərdişlərin formalaşdırılmasıdır. Peşəkarların prosesdə iştirakı məktəbəqədər yaşlı uşaqların düşüncə tərzlərinin formalaşması, təcrübə aparan qismində olması, sualların, fikirlərin düz təqdim edilməsini təmin edər. Problemlərin həlli kimi müxtəlif qabiliyyətlərin formalaşması, fikirlərin sərbəst şəkildə izahı, əqli nəticənin verilməsi kimi, ilkin versiyada səriştənin formalaşması məsələsi də prioritetdədir. İnklüziv təhsilin şərtlərinin reallaşdırılması ilə məktəbəqədər təhsil müəssisəsində dil və savad bacarıqlarına, fiziki inkişafa nail olmaq mümkündür.

Müxtəlif məhdudiyyətə malik uşaqların məktəbəqədər yaşda təhsil prosesinə cəlb edilməsi, təhsil müəssisəsindən xüsusi şəraiti tələb edir. Bunun üçün inklüziv təhsilin bir sıra prinsiplərin dərki vacibdir:

–Insanın bacarıqları və nailiyyətlərindən asılı olmayaraq onun dəyərləndirilməsi;

–Hər bir insan düşünməyə və hiss etməyə qadirdir;

–Hər bir insanın ünsiyyət qurmaq hüquqi vardır;

–Insanın insana ehtiyacı var;

–Real imkanlar nəzərə alınmaqla, hər bir insanın təhsil almasına şərait yaradılmalıdır;

–İnsanların dostluğa və dəstəyə ehtiyacı var;

–Təhsil alanların inkişafının təmin edilməsi üçün demokratik mühitin yaradılması;

–Həyat tərzinin rəngarəngliyi insanın yaşam imkanlarını daha da gücləndirir.

Inklüziya prosesində xoşagəlməz məqamlardan biri – cəmiyyət tərəfindən xüsusi qayğıya ehtiyacı olan insanların birmənalı qəbul edimməməsidir. Xüsusi qayğıya ehtiyacı olan insanların yaşadıqları mühitdə bəzi insanlar tərəfindən neqativ qarşılanmaları və sosial dəstəyin sistem kimi özünü doğrultmaması bir çox əngəllərin səbəbidir.

İnklüziv təhsil məktəbəqədər yaşlı uşaqlarda erkən yaşlarında tolerantlıq, dözümlülük, mərhəmət və qarşılıqlı hörmət hisslərinin təməlini qoyur. Məktəbəqədər təhsil prosesində xüsusi qayğıya ehtiyacı olan uşaqlarla birgə fəaliyyət böyüməkdə olan nəsil üçün çox

DOI:10.30546/gdu.2023.189-192

önəmlidir. Hələ kiçik yaşlarda uşaqlar xüsusi qayğıya ehtiyacı olan insanlarla təması, onların məhdudiyyətlərinin dərk edilməsi ilə yanaşı, cəmiyyət üçün aşıkar olmayan bəzi qabiliyyətləri və istedadlarının da açıqlanmasına imkan yaradır.

Təhsil prosesinin iştirakçılarının münasibətlərinin qurulması inklüziyanın özəyini təşkil edir. Bu prosesin gedişatında daim əməkdaşlıq olmalıdır ki, proses iştirakçıları yardımçı olur və yoldaşlarından kömək alırlar, məsləhətlər verirlər, söylənən tənqidləri dinləyir və nəticənin çıxarılmasını bacarır. Görülmüş (fərd tərəfindən) hər bir iş üçün minnətdarlığın ifadəsi, qarşılıqlı hörmət inklüziv mühitdə mütləq şəkildə özünü göstərməlidir. Vahid peşəkar komanda şəklində prosesdə iştirak etmək işin effektivliyindən xəbər verir. Peşəkar mütəxəssislər və pedaqoqlar inklüziv prosesin yeni iştirakçıları üçün üstad qismində edirlər, bununla da yeni peşəkar yetişdirirlər və öz səriştələrini artırmaq imkanı əldə etmiş olurlar.

İnklüziv prosesin məktəbəqədər təhsil prosesində qruplarda qurulması özünəməxsus bir işdir. İnklüziv proses qruplarda aşağıdakı qayda ilə qurulur:

- Inklüziv qruplarda olan uşaqların fərdi xüsusiyyətlərinin diaqnostikası.
- Fənlərarası resusrsların nəzərə alınması ilə uşaqların tələblərinin öyrənilməsi.
- Fərdi təhsil marşrutunun yaradılması.
- Fərdi təhsil planı.
- İnklüziv qruplarda təhsil prosesinin planlaşdırılmasında uşaqların şəxsi tələbatlarının nəzərə alınması.
- Inklüziv qruplarda həyat fəaliyyətinin təşkili.
- Inklüziv təhsil prosesinin effektivliyinin dəyərləndirilməsi.

Birgə fəaliyyətin qarşımıza qoyduğu vəzifələri müəyyənləşdirməyə çalışmışıq:

- Uşaqların və böyüklərin birgə fəaliyyətinin zəruriliyi, qarşılıqlı maraq və hörmət əsasında qurulması;
- Müxtəlif insanlarla münasibətlərin qurulması və uzun müddət onun saxlanılması;
- Bir- birinə dəstək olmağı öyrənmək;
- Pozitiv emosional formada kommunikasiyanın qurulması, mədəni ünsiyyətin inkişaf etdirilməsi;
- Seçim etmək, şəxsi fəaliyyəti planlaşdırmaq, birgə fəaliyyəti qurmaq bacarığı, prosesdə öz rolunu müəyyən etmək və vəzifələrini dərk etmək;
- İdrakı, oyun və tədqiqatçılıq fəaliyyətində bilik və bacarıqların inkişafı;
- Özünüxidmət və özünü idarə etmək vərdişlərinin formalaşdırılması.

Məktəbəqədər yaş dövründə insanın ilkin sosial ünsiyyət qurmaq vərdişləri formalaşır. Bu işdən əldə olunacaq təcrübə hər bir insanın gələcəyi üçün çox faydalıdır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün mərhəmət hissi və stabil mühit ən önəmlisidir. Öz inkişafında çətinliklərlə üzləşən insan sosial adaptasiya, cəmiyyətdə adekvat vərdişlərin formalaşmasında çətinliklərlə üz-üzə qalır. Əgər onun uşaqlığı üçün süni mühit yaradılarsa, bu halda sosiallaşma prosesinin reallaşdırılması imkansız olur. Süni yaradılmış mühitə xüsusi məktəbəqədər qruplar, xüsusi məktəblər və buna bənzər müəssisələri aid etmək olar. Bu tip müəssisələrdə təhsil almış uşaq gələcək həyatında heç bir mühitə adaptasiya etmək imkanına malik olmur, ona aid olan problemlər daha da dərinləşir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqlarda təlim prosesi daha ləng axara malik olur, dəyişən mühitə adaptasiyada çətinliklər yaranır. Ətrafda baş verənlərə böyük həssaslıqla yanaşır, ona qarşı olan neqativi tez hiss edir. [3]

İnklüziyanın ən vacib məqamlarından biri cəmiyyətin bu kimi insanların təlim-tərbiyə məsələsinə nə dərəcədə hazırlıqlı olmasından asılıdır. Fiziki, psixi, intellektual problemləri olan uşaqlarla bir məkanı paylaşmaq, onlara dəstək olmaq, inklüziya vasitəsi ilə cəmiyyətə daxil olmalarına köməklik göstərmək və tam bərabər hüquqlu vətəndaş yetişmələrinə dəstəkdir.

Belə qənaətə gəlmək olur ki, uşaqların inklüziv təhsilə erkən yaşlarından cəlb edilməsi vacibdir. Məktəbəqədər təhsil mühitinə xüsusi qayğıya ehtiyacı olan uşaqların cəlb olunması müsbət addımdır. Hər uşaq üçün bu mühit əlçatan və inkişafı təmin edən olmalıdır. Düzgün qurulmuş təhsil prosesində oyun və musiqi terapiyası yaxşı məqamlardan biridir.

DOI:10.30546/gdu.2023.189-192

Bununla yanaşı məktəbəqədər təhsil müəssisəsi üçün səriştəli mütəxəssislərin olması da vacib şərtlərdəndir. Tərbiyəçilər, loqopedlər, musiqi rəhbərləri inklüziv təhsilin metodoloji əsaslarını dərk etməli, xüsusi pedaqogikaların priyomlarını bilməlidirlər. Lakin, ən başlıcası odur ki, pedaqoji kollektivin əsas prinsiplərindən biri - insansevərlik və mərhəmət olmalıdır.

İnklüziv qruplarda yaranan problemlərdən biri də sağlam uşaqlarla xüsusi qayğıya ehtiyacı olan uşaqların maraqlarının bir araya gətirilməsidir. Məlumdur ki, burada müxtəlif psixoloji baryerlər mövcuddur. Bu çox mürəkkəb proses kimi dəyərləndirilir, tərbiyəçidən böyük səy və bilik tələb edir. Məktəbəqədər təhsil müəssisələrinin inklüziv mühitində mütəxəssislər böyük həssaslıqla yanaşmalar nümayiş etdirirlər. Əsas məram – uşaqların sosial həyatlarının tənzimlənməsidir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işin əsas prioriteti - bilik və bacarıqların formalaşdırılması deyil, sosiallaşmanın təmin edilməsidir.

Yuxarıda qeyd etdiklərimizdən belə qənaətə gəlmək olur ki, butun uşaqlar lazımı dəstək almaqla uğurlar əldə etməyə qadirdir. Bu dəstək empatiya , tolerantlıq, sosial ədalət, əməkdaşlıq atmosferində kommunikasiyanın yaradılması üçün təminatdır. Qeyd etdiklərimiz xüsusi qayğıya ehtiyacı olan uşaqların gələcəkdə uğurlu sosiallaşmalarına, təhsil almalarına, cəmiyyətin həyatında fəal mövqedə olmalarına imkan yaradar.

***Ədəbiyyat***

1. Azərbaycan Respublikası Konstitusiyası Bakı, 1995
2. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu Bakı, 2009
3. Яковлева Л. А., Землянская А.А. Особенности инклюзивного образования // Международный студенческий научный вестник. – 2015.

## ОТ ИНКЛЮЗИИ К СОЦИАЛИЗАЦИИ

***Байрамова Зияфат Вилаят кызы, Алескер Айсель Муса кызы***

***Резюме***

Независимо от культурно-нравственного, экономического развития общества, люди с ограниченными возможностями всегда имеют проблемы с общественным сознанием. Поэтому есть необходимость введения инклюзии в образовательные учреждения с раннего возраста детей. В нашей реальности права детей с ограниченными возможностями датируются законопроектами, поддержкой государственных, а также не государственных структур. Дети с проблемами инклюзии должны включаться в нормальную образовательную среду с дошкольного возраста.

Для социализации таких детей необходимо соблюдение принципов не только инклюзии, но и всеобщих человеческих ценностей. В дальнейшем эти дети должны обеспечить свое будущее, стать нужным человеком для общества.

## FROM INCLUSION TO SOCIALIZATION

***Bayramova Ziyafat Vilayat, Alesker Aysel Musa***

***Summary***

Regardless of the cultural, moral, economic development of society, people with disabilities always have problems with public consciousness. Therefore, there is a need to introduce inclusion in educational institutions from an early age of children. In our reality, the rights of children with disabilities date back to bills, support from state and non-state structures. Children with inclusion problems should be included in a normal educational environment from preschool age.

For the socialization of such children, it is necessary to observe the principles of not only inclusion, but also universal human values. In the future, these children must ensure their future, become the right person for society.

***Rəyçi: dos. Allahverdi Quliyev***
***Təhsilin pedaqogikası və metodikası kafedrasının 5 iyul 2023-cü il tarixli iclsın 14 saylı protokolu***
***Daxil olma tarixi 17 iyul 2023-cü i***